UOT 82
https://doi.org/10.59849/2311-8482.2025.3.47

RÖYA GÖZƏLOVA*

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏZKİRƏÇİLİK ƏNƏNƏSİ VƏ TƏZKİREYİ-YUSİF ƏSƏRİ

*Azərbaycan ədəbiyyatında təzkirəçilik ənənəsi zəngin və çoxəsrlik bir tarixə malikdir. Təzkirələr yalnız şair və yazıçıların həyatı və yaradıcılığı haqqında məlumat vermir, eyni zamanda dövrün ictimai-siyasi və mədəni mənzərəsini də əks etdirir. XVI əsrdə Sami Sam Mirzənin "Töhfeyi-Sami" əsəri ilə başlanan bu ənənə, sonrakı dövrlərdə inkişaf edərək Azərbaycan ədəbiyyatşünaslığında mühüm yer tutmuşdur. Təzkirələr klassik poeziya ənənələrinin, şairlərarası əlaqələrin və ədəbi mühitin öyrənilməsi üçün əsas qaynaqlardan biri hesab olunur. Bu ənənə çərçivəsində formalaşan əsərlərdən biri də "Təzkireyi-Yusif"dir. Bu əsər Azərbaycan şairlərinin həyat və yaradıcılıq yolunu geniş şəkildə işıqlandıraraq, klassik ədəbiyyat tariximizin tədqiqində əhəmiyyətli bir mənbə rolunu oynayır. Təzkirəçilik ənənəsinin qorunub saxlanılması milli mədəniyyətin inkişafı üçün vacibdir və ədəbi irsimizin gələcək nəsillərə ötürülməsinə xidmət edir.*

***Açar sözlər:*** *Təzkirəçilik, klassik Azərbaycan ədəbiyyatı, Təzkireyi-Yusif, ədəbi mənbələr, ədəbi irs və s.*

## Giriş.

XX əsrin əvvəllərində Azərbaycanda baş verən dərin ictimai-siyasi proseslər ölkənin mədəni həyatında, xüsusən də ədəbiyyat sahəsində ciddi dəyişikliklərə yol açdı. Bu dövr milli ədəbiyyat tarixçiliyinin formalaşmasında mühüm mərhələ oldu. Əvvəllər yalnız mövcud ideoloji çərçivələr daxilində tədqiq olunan ədəbiyyatımız yeni meyarlar və dəyərlər əsasında araşdırılmağa başladı. Ədəbiyyatşünaslıq klassik irsimizi öyrənərkən milli köklərə və orijinal qaynaqlara müraciət etmək imkanına sahib oldu ki, bu da elmi yanaşmanın keyfiyyətini xeyli artırdı.

Bu baxımdan ən qiymətli və etibarlı mənbələrdən biri təzkirələrdir. Təzkirələr yalnız klassik şair və yazıçıların yaradıcılığı haqqında məlumat verməklə kifayətlənmir, həm də həmin dövrün ictimai-mədəni mühitini, ədəbi zövqünü və bədii ənənələrini əks etdirən zəngin tarixi sənəd kimi çıxış edir. Lakin sovet ideologiyası dövründə bu mənbələr yetərincə dəyərləndirilməmiş, yalnız ədəbiyyat tarixi kitablarında qısa şəkildə adı çəkilmiş, ikinci dərəcəli qaynaq kimi təqdim olunmuşdur. Hətta onların verdiyi məlumatlara bəzən şübhə ilə yanaşılmış, bu da klassik irsimizin öyrənilməsində müəyyən boşluqlar yaratmışdır.

## Əsas təhlil

Müstəqillik illərində isə bu yanaşmaya yenidən baxmaq zərurəti meydana çıxdı. Bu gün ədəbiyyatşünaslığımız qarşısında duran mühüm məsələlərdən biri təzkirələrin əsl elmi dəyərinin üzə çıxarılması, onların klassik estetik-bədii irsimizin tədqiqində oynadığı rolu dərindən araşdırmaqdır. Təzkirələrin sistemli şəkildə öyrənilməsi klassik ədəbiyyatımızın tam mənzərəsini bərpa etməyə, unudulmuş ədəbi simaları üzə çıxarmağa və milli ədəbiyyat tariximizi daha obyektiv şəkildə yazmağa imkan verir. Beləliklə, XX əsrin əvvəllərində başlanan ictimai-siyasi dəyişikliklər yalnız yeni ədəbi cərəyanların yaranmasına deyil, həm də milli irsimizin öyrənilməsinə yönəlmiş elmi düşüncənin formalaşmasına zəmin yaratmışdır.

Mirzə Əbdülxalıq Yusifin yaşadığı dövr Azərbaycan ədəbi-mədəni həyatının xüsusi canlanma mərhələlərindən biri idi. XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi mühiti yeni ideyaların, maarifçilik hərəkatının və milli oyanış prosesinin güclənməsi ilə xarakterizə olunurdu. Bu dövrdə fəaliyyət göstərən şair və yazıçılar yalnız klassik poeziya ənənələrini davam etdirmir, həm də dövrün cəmiyyətində baş verən dəyişikliklərə bədii söz

vasitəsilə münasibət bildirirdilər. Belə zəngin və rəngarəng ədəbi mühit Mirzə Əbdülxalıq Yusifin yaradıcılıq dünyasının formalaşmasına mühüm təsir göstərmişdir. Onun şeirlərində həm klassik Azərbaycan poeziyasının ruhu, həm də dövrün ictimai-siyasi reallıqları aydın şəkildə hiss olunur.

Mirzə Əbdülxalıq Seyid Əzim Şirvani, Əbdülxalıq Cənnəti, Molla Ağa Bixud, Mirzə Səməndər kimi görkəmli şairlərlə yaxın dostluq münasibətləri qurmuş, onlarla həm şəxsi yazışmalar aparmış, həm də ədəbi polemikalara girmişdir. Bu ünsiyyət təkcə şəxsi dostluqla məhdudlaşmamış, bədii yaradıcılıqda qarşılıqlı təsir və fikir mübadiləsinə də səbəb olmuşdur. Seyid Əzim Şirvani, Əbdülxalıq Cənnəti, Molla Ağa Bixud və Mirzə Səməndər kimi sənətkarlar XIX əsrin sonları və XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının aparıcı nümayəndələri kimi tanınırdılar. Onlar klassik şeir formalarına sadiq qalaraq qəzəl, qəsidə, rübai kimi janrlarda məhəbbət, təbiət gözəllikləri, dini-fəlsəfi düşüncələr mövzularında əsərlər yazmaqla yanaşı, cəmiyyətin sosial və mənəvi problemlərinə də toxunurdular. Bu şairlərin əsərlərində xurafat, cəhalət, sosial ədalətsizlik tənqid olunur, maarifçilik ideyaları təbliğ edilirdi. Beləliklə, onlar həm klassik poeziya xəttini qoruyub saxlamış, həm də yeni ideoloji məzmun gətirərək Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfələr vermişlər.

Mirzə Əbdülxalıq Yusif də öz dövrünün ədəbi məclislərində fəal iştirak etmişdir. O, yalnız şair kimi deyil, həm də gənc və istedadlı şairlərə yol göstərən bir ustad kimi tanınırdı. Bir çox şairlər ona məktublar yazaraq öz əsərlərini göndərir, şeirlərini onun mühakiməsinə təqdim edir, bədii dəyərləndirmə və məsləhət almaq üçün ona müraciət edirdilər. Bəzən isə bu məktublar səmimi dostluğun ifadəsi olaraq şairin şəxsiyyətinə və yaradıcılığına həsr edilən şeirlərlə müşayiət olunurdu. Bu yazışmalar həmin dövrün ədəbi həyatında canlı fikir mübadiləsinin və ədəbi əlaqələrin göstəricisi kimi xüsusi əhəmiyyət kəsb edir.

Təəssüf ki, bu məktubların və həmin şairlərin bəzi əsərlərinin böyük bir hissəsi dövrün çətinlikləri, çap imkanlarının məhdudluğu və müxtəlif səbəblər üzündən nəşr olunmamış, geniş oxucu kütləsinə çatmamışdır. Nəticədə, ədəbiyyat tariximizdə bir sıra şairlərin yaradıcılıq irsi yalnız qismən məlum olmuş, onların bədii söz xəzinəsinə verdikləri töhfələr tam şəkildə ortaya qoyula bilməmişdir. Bu gün həmin yazışmaların və nəşr olunmamış şeirlərin araşdırılması yalnız Mirzə Əbdülxalıq Yusifin yaradıcılığını deyil, bütövlükdə həmin dövrün ədəbi mühitini daha dərindən öyrənmək baxımından mühüm elmi dəyərə malikdir. Belə tədqiqatlar XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan poeziyasının inkişaf dinamikasını, ədəbi ideyaların yayılmasını və klassik poeziyanın yeni dövrün reallıqları ilə necə vəhdət təşkil etdiyini anlamağa imkan verir. Məhz Təzkireyi-Yuif əsəri də belə əsərlərdəndir. M.Ə.Yusif sağlığında təzkirəni yazamasa da, Əlyazmalar İnstitutunun dəyərli alimi Sona Xəyal M.Ə.Yusifə yazılan şeirləri toplayıb bir ararya gətirmişdir. Nəticədə "Təzkirieyi-Yusif" əsəri meydana çıxmışdır.

Azərbaycan ədəbiyyatı tarixində təzkirələr çox olmuşdur. *XIX-XX əsrlərdə Azərbaycan təzkirəçiliyinin inkişafında özünəməxsus, xüsusi cəhətlərinin formalaşdığı, yeni mərhələnin başladığı nəzərə çarpırdı"* [Kərimova F.2021, s.13]. Bu dövrdə təzkirəçilik orta əsrlərdən miras qalmış ənənə kimi hələ də davam edirdi. *"Azərbaycan ədəbiyyatı tarixində Əhdi Bağdadi, Lütftəli bəy Azər, Məhəmməd Ərdəbili, Mir Mövsüm Nəvvab, Sami Sam Mirzə, Səhab, Nazim xacə Məhəmməd, Qulam Məmmədli, Sadiq, Seyid Əzim Şirvani, Fani, Mirzə Həsən Zünuzi və b. təzkirə yaratmışdılar*" [Dadaşlı, 2019: 302-304].

Təzkirələr orta əsrlər klassik ədəbiyyatında işlənən əsərlər idi. Belə ki, bu əsərlərdə biblioqrafik və bioqrafik xüsusiyyətləri birləşdirən bu əsərlər dövrün fərqli şairləri tərəfindən tərtib olunurdu. Bu təzkirələr klassik Azərbaycan şairlərinin poeziyasından seçmə şeirlər əsasında tərtib edilirdi, dövün bir çox şeir örnəklərini itib-getməkdən qoruyub gələcək nəsillərə ötürürdü

*N.Qəhrəmanlı təzkirələrin ədəbiyyat tariximizdə mövqeyi haqqında belə yazır: "Ümumilikdə, təzkirəçiliyin ədəbiyyat tariximizdə mahiyyəti və mənası da ədəbi tarixi faktların az-çox toplu halına salınması ilə əlaqəlidir ki, bu da ədəbi-tarixi dövrün əsas uğurlarından hesab oluna bilər"* [Qəhrəmanlı, 1997:17].

Azərbaycan ədəbiyyat tarixində təzkirəçilik zəngin bir ənənəyə malik olub, əsrlər boyu tədqiqatçılar üçün mühüm mənbə kimi dəyərləndirilmişdir. Bu ənənənin başlanğıcı XVI əsrə, Sami Sam Mirzənin 1550-ci ildə qələmə aldığı "Töhfeyi-Sami" əsərinə gedib çıxır. Sonrakı dövrlərdə yaranan təzkirələr məzmun, quruluş və üslub baxımından bir-birindən fərqlənsə də, onları birləşdirən əsas xüsusiyyət – milli kimliyin və mənsubiyyətin aydın şəkildə ifadə olunmasıdır.

Azərbaycan təzkirəçilik ənənəsinin başlanğıcı XVI əsrin ortalarına təsadüf edir və bu sahədə ilk nümunə kimi Sami Sam Mirzənin 1550-ci ildə qələmə aldığı "Töhfeyi-Sami" əsəri göstərilir. Şah İsmayıl Xətainin oğlu olan Sam Mirzə (1517–1576) atasının yaratdığı ədəbi məclislərin fəal üzvlərindən biri olmuş, bu məclislərdə iştirak edən şairlər və sənətkarlarla yaxından tanışlıq qurmuşdur. Daha sonra isə qardaşı, Səfəvi hökmdarı Şah Təhmasibin (1524-1576) sarayında yaşamış, dövrün ən görkəmli sənətkarları ilə sıx ünsiyyətdə olmuşdur. O, gənc yaşlarından yüksək səviyyədə təhsil almış, dövrünün alim və ziyalılarından dərs alaraq, həm elmi, həm də bədii yaradıcılıqda dərin bilik qazanmışdır. Sam Mirzə özü də poeziya ilə məşğul olmuş və şeirlərində "Sami" təxəllüsündən istifadə etmişdir.

Onun ən mühüm əsəri olan "Töhfeyi-Sami" fars dilində yazılmışdır və XVI əsrin birinci yarısındakı mədəni, siyasi və ədəbi həyat barədə zəngin məlumat verir. Əsərdə ümumilikdə 664 şair və sənətkar haqqında geniş bilgilər təqdim edilir ki, bu da həmin dövrün ədəbi mühitini öyrənmək baxımından mühüm mənbə hesab olunur. Bu təzkirə, həmçinin Məhəmmədəli Tərbiyətin "Danişməndani-Azərbaycan" kimi sonrakı əsərlərinə də zəngin faktoloji material təqdim etmişdir.

"Töhfeyi-Sami" Əbdürrəhman Caminin "Baharistan" və Əlişir Nəvainin "Məcalisün-Nəfais" əsərlərinin təsiri ilə yazılmış, bu klassik təzkirələrin davamı xarakteri daşıyır. Əsər bir müqəddimə və yeddi fəsildən ibarətdir:

Tədqiqatçı Əzizağa Məmmədov qeyd edir ki, Sam Mirzə atasından (Şah İsmayıl Xətaidən) və qardaşından fərqli olaraq fars mədəniyyətinə daha çox meyl göstərmiş, türkcə yazan şairlərə layiqli dəyər verə bilməmişdir. Bu səbəbdən onun təzkirəsində təqdim etdiyi nümunələrin böyük hissəsi farsca şeirlərdən ibarətdir. Lakin o, Həbibi, Füzuli, Susəni, Tüfeyli, Yusif bəy kimi dövrün görkəmli Azərbaycan şairlərinin ana dilində yazdıqları əsərlərindən də müəyyən örnəklərə yer vermişdir.

Azərbaycan təzkirəçilik tarixində ikinci mühüm əsər isə Əhdi Bağdadinin "Gülşənüş-şüəra" təzkirəsidir. Bu əsər yazıldığı mühitə görə Sam Mirzənin "Töhfeyi-Sami"si və Sadıq bəy Sadiqinin "Məcməül-xəvas" əsərindən müəyyən dərəcədə fərqlənir. "Gülşənüş-şüəra" Anadolu təzkirəçilik məktəbinin təsiri altında qələmə alınmışdır. Bununla yanaşı, Azərbaycan təzkirələri ilə də oxşar cəhətləri vardır ki, bu oxşarlığın səbəbi Əlişir Nəvainin zəngin yaradıcılığının həm Anadolu, həm də Azərbaycan ədəbi mühitinə göstərdiyi güclü təsirdədir.

"Gülşənüş-şüəra"nın Azərbaycan ədəbiyyat tarixçiliyində xüsusi əhəmiyyəti vardır. Birincisi, bu əsər Azərbaycan dilində yazılmış ilk təzkirə kimi qəbul olunur. İkincisi isə, o, Bağdad ədəbi mühitinin dövrün ədəbi prosesindəki rolunu işıqlandıraraq, həmin mühit haqqında geniş məlumat verir. Bu xüsusiyyətlərinə görə Əhdi Bağdadinin təzkirəsi yalnız klassik poeziyanın öyrənilməsi üçün deyil, həm də o dövrün ictimai-mədəni həyatının araşdırılması baxımından dəyərli qaynaq hesab olunur.

Sami Mirzənin əsərindən fərqli olaraq, "Gülşənüş-şüəra" müəllifi Azərbaycan (türk) dilində yazılmış ədəbi nümunələrə geniş yer vermiş və bununla da milli təzkirəçilik ənənəsinin təməlini

qoymuşdur. Sadıq bəy Əfşar isə öz təzkirəsində şairləri türk və fars ədiblərinə ayıraraq, yaşadığı dövrdə milli şüurun artıq formalaşdığını göstərmişdir. "Atəşkədə" əsərində Azərbaycanın coğrafiyası, tarixi hadisələri və ədəbi mühiti ayrıca bir bölmədə təqdim edilir ki, bu da həmin dövrün ədəbi mühitinə dair dəyərli məlumat verir.

*"Molla Məhəmməd Nəvvabın təzkirəsi isə yalnız Azərbaycan şairlərini əhatə etməsi ilə seçilir və bu xüsusiyyəti ilə milli ədəbiyyat tariximizdə ilk nümunə kimi dəyərləndirilir. Lütfi bəy Azərin təzkirəsindən fərqli olaraq, "Məhəmmədəli Tərbiyət" kitabının başlığında birbaşa "Azərbaycan" adını işlətmiş və burada Azərbaycan ədəbiyyatının ümumi inkişaf yolunu, klassik ədəbi prosesin gedişini, eləcə də XX əsrin əvvəlinə qədər yaşamış ədəbi şəxsiyyətlərin yaradıcılığını ətraflı işıqlandırmışdır*" [Nəhmətova, 2012: 5].

Azərbaycan təzkirəçilik tarixində mühüm yeniliklər gətirən və özünəməxsus üslubu ilə seçilən "Danişməndani-Azərbaycan" əsəri Mirzə Məhəmmədəli Tərbiyətin (1875-1940) adını daima yaşadan elmi irsdir. M.Tərbiyət Cənubi Azərbaycanın görkəmli maarifçi, mütərəqqi düşüncəli vətənpərvər ziyalılarından biri olmuşdur. O, yalnız elmi fəaliyyəti ilə deyil, həm də milli-demokratik hərəkatın fəal iştirakçısı kimi tanınmışdır. Ömrü boyu Azərbaycan xalqının azadlıq, maarifçilik və tərəqqi ideyaları ilə sıx bağlı olan Tərbiyət zəngin elmi yaradıcılığı ilə ədəbiyyat tarixçiliyində mühüm yer tutmuş, milli təzkirəçilik ənənəsinin inkişafına böyük töhfələr vermişdir.

**Nəticə.**

Azərbaycan ədəbiyyatında təzkirəçilik ənənəsi milli-mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Təzkirələr yalnız ədəbi şəxsiyyətlərin həyat və yaradıcılığı haqqında məlumat verən mənbələr deyil, həm də həmin dövrün ictimai-siyasi, mədəni və mənəvi mühitini əks etdirən dəyərli tarixi sənədlərdir. XVI əsrdən başlayaraq formalaşan bu ənənənin ilk nümunəsi Sami Sam Mirzənin "Töhfeyi-Sami" əsəri hesab olunur. Bu əsər Azərbaycan, fars və digər bölgələrin ədəbiyyat adamları barədə zəngin bilgilər təqdim etməklə yanaşı, Şah İsmayıl Xətai dövrünün saray və mədəniyyət mühitini də aydın şəkildə təsvir edir.

Daha sonrakı mərhələdə Əhdi Bağdadinin "Gülşənüş-şüəra", Sadıq bəy Əfşarın "Məcməül-xəvas", Mirzə Məhəmmədəli Tərbiyətin "Danişməndani-Azərbaycan" kimi təzkirələri bu sahədə mühüm mərhələ olmuşdur. Xüsusilə M.M. Tərbiyətin əsəri Azərbaycan ədəbiyyat tarixində milli təzkirəçilik ənənəsinin zirvəsi kimi qiymətləndirilir. Bu əsərdə yalnız ədəbi şəxsiyyətlər deyil, həm də Azərbaycanın tarixi, coğrafiyası və ictimai həyatı haqqında geniş məlumat verilir. Təzkirələrdə şairlərin yaradıcılıq xüsusiyyətlərinin tədqiqi ilə yanaşı, onların milli kimliyi, bədii-estetik zövqü və ideoloji baxışları da əksini tapmışdır.

Azərbaycan ədəbiyyatında təzkirəçilik ənənəsi, xüsusilə XX əsrin əvvəllərindən etibarən yeni məzmun qazanmış, klassik irsin elmi əsaslarla araşdırılması istiqamətində mühüm qaynaq rolunu oynamışdır. Bu baxımdan "Təzkireyi-Yusif" kimi əsərlər milli ədəbiyyat tariximizin öyrənilməsində əvəzsiz mənbələrdən biri hesab edilir. Beləliklə, təzkirəçilik ənənəsi yalnız keçmişin ədəbi irsini yaşatmaqla kifayətlənmir, həm də müasir tədqiqatlar üçün zəngin faktoloji baza yaradır, milli kimliyimizin qorunması və ədəbi yaddaşımızın möhkəmləndirilməsi prosesində mühüm rol oynayır.

## ƏDƏBİYYAT

1. Azərbaycan klassik ədəbiyyatında işlədilən adların və terminlərin şərhi/ A. M. Babayev. – Bakı: Maarif, – 1993. – 291 s.

2. Dadaşlı, Y. Azərbaycan təzkirələrinin tədqiqi tarixi/ AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Azərbaycan ədəbiyyatşünaslığı, – 2019, – № 2. – s. 300-306.

3. Kərimova, F.B. Seyid Əzim Şirvaninin ictimai-siyasi və fəlsəfi görüşləri:/ filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş diss. avtoreferatı:/ – Bakı: 2021, – 24 s.
4. Köçərli, F. Azərbaycan Ədəbiyyatı / F.Köçərli. – Bakı: Avrasiya Press, – 2005. – 464 s.
5. Qasımzadə, F. XIX əsr Azərbaycan ədəbiyyatı/ F.Qasımzadə. – Bakı:Elm və Təhsil, – 2017. – 552 s.
6. Qasımzadə, F.S. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi / F.S.Qasımzadə. – Bakı: Maarif, – 1974, – s.382.
7. Qəhrəmanlı, N. Milli ədəbiyyat tarixçiliyi: genezis, inkişaf, dövrləşdirmə problemləri/ N.Qəhrəanlı. – Bakı: Qartal, – 1997. – 326 s.
8. Nəhmətova, K. Məhəmmədəli Tərbiyətin «Danişməndani-Azərbaycan» əsəri/ K.Nəhmətova. – Bakı: Elm və təhsil, –2012. – 132 s. https://anl.az/el/Kitab/2014/Ar2012-2468.pdf
9. Təzkireyi-Yusif / tərt.ed. S.Xəyal – Bakı: Ecoprint, – 2016. – 70 s.
10. Yusif, M.Ə. Qəzəllər/ M.Ə.Yusif. – Bakı: MBM, – 2012. – 124 s.

***Dövlət Sərhəd Xidmətinin Akademiyası**
**AMEA M. Füzuli adına Əlyazmalar İnstitunun dissertantı**
**E-mail:royayolchuyeva@gmail.com***

**Roya Gozalova**

## THE TRADITION OF TAZKIRA WRITING IN AZERBAIJANI LITERATURE AND THE WORK "TAZKIREYI-YUSIF"

The tradition of tazkira writing in Azerbaijani literature has a long and rich history. Tazkiras are not only collections that provide information about the lives and works of poets and writers but also reflect the socio-political and cultural landscape of their time. This tradition began in the 16th century with Sami Sam Mirza's "Tohfeyi-Sami" and continued to develop, gaining an important place in Azerbaijani literary studies. Tazkiras are considered essential sources for studying classical poetry, literary connections between poets, and the general literary environment of the period. One of the remarkable works created within this tradition is "Tazkireyi-Yusif", which thoroughly presents the life and creative activity of Azerbaijani poets. This work serves as a valuable resource for understanding the historical development of classical Azerbaijani literature and preserving the rich literary heritage for future generations.

**Keywords:** *tazkira writing, classical Azerbaijani literature, Tazkireyi-Yusif, literary sources, literary heritage etc.*

**Роя Гозалова**

## ТРАДИЦИЯ НАПИСАНИЯ ТАЗКИРЫ В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ И ПРОИЗВЕДЕНИЕ «ТАЗКИРЕЙИ-ЮСИФ»

Традиция написания тазкиры в азербайджанской литературе имеет долгую и богатую историю. Тазкиры — это не только сборники, предоставляющие информацию о жизни и творчестве поэтов и писателей, но и отражение социально-политического и культурного ландшафта своего времени. Эта традиция началась в XVI веке с «Тогфейи-Сами» Сами Сама

Мирзы и продолжала развиваться, заняв важное место в азербайджанском литературоведении. Тазкиры считаются важными источниками для изучения классической поэзии, литературных связей между поэтами и общей литературной среды того периода. Одним из замечательных произведений, созданных в рамках этой традиции, является «Тазкирейи-Юсиф», всесторонне представляющий жизнь и творческую деятельность азербайджанских поэтов. Это произведение служит ценным ресурсом для понимания исторического развития классической азербайджанской литературы и сохранения богатого литературного наследия для будущих поколений.

**Ключевые слова:** *тазкира, классическая азербайджанская литература, Тазкирейи-Юсиф, литературные источники, литературное наследие и др.*

*Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 06.06.2025**
**Son daxilolma tarixi: 27.07.2025**